AZƏRBAYCAN RESPUBLİKASI
TƏHSİL NAZİRLİYİ

Az1008, Bakı şəhəri,
Xətai prospekti, 49

Tel.: +994 12 599 11 55, Faks: +994 12 496 06 47
e-mail: office@edu.gov.az

"18" 05 2022 il

№ 02-12-428/15

**Ali və orta ixtisas təhsil müəssisələrinin rəhbərlərinə**

Bildiyiniz kimi Azərbaycan ali və orta ixtisas təhsili müəssisələrinə əcnəbi vətəndaşların qəbulu və ölkəmizdə təhsil alan əcnəbi tələbələrin məlumatlarının toplanması aidiyyəti elektron resurslar (portal.edu.az və atis.edu.az) vasitəsilə aparılmaqdadır.

Məlumdur ki, sözügedən məsələ "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununun 14.17-1-ci maddəsinin (Azərbaycan Respublikasında fəaliyyət göstərən bütün təhsil müəssisələri "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi"nə qoşulmalıdırlar.) tələbidir. Paralel olaraq əcnəbilərin təhsili ilə bağlı əsas qanunvericilik sənədi olan Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 1 may tarixli 125 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası vətəndaşlarının xarici ölkələrdə, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında təhsil alması Qaydaları"nın 3.4-cü yarımbəndində təhsil almaq üçün müraciət edən əcnəbilərin elektron qaydada müraciətinə dair tələb öz əksini tapmışdır.

Bununla da qanunvericiliyin aidiyyəti tələblərinin icrası məqsədilə bu günədək təhsil müəssisələrinə əcnəbi təhsilalanların atis.edu.az-a məlumatlarının əlavə edilməsi, həmçinin əcnəbilərin qəbulunun portal.edu.az vasitəsilə aparılması məqsədilə həyata keçirilməli olan tədbirlər barədə bir neçə rəsmi və elektron məktublar göndərilmiş, bir sıra təhsil müəssisələri ilə işçi qaydada görüşlər keçirilmişdir. Qeyd olunanlara baxmayaraq bu günədək atis.edu.az-da təhsilalanların məlumatlarının tamlığı və dəqiqliyinə, portal.edu.az vasitəsilə əcnəbi vətəndaşlarının qəbulunun həyata keçirilməsi üçün isə atis.edu.az-da növbəti tədris ili üçün məlumatların əlçatanlığına nail olunmamışdır. Əksər əməkdaşların mövzu ilə bağlı əsas gətirdikləri məsələ isə əcnəbilərin təhsil məsələləri üzrə təhsil müəssisəsinin struktur

bölmələri arasında düzgün kommunikasiyanın olmaması, məsul şöbə (əcnəbilərin təhsili ilə bağlı məşğul olan müvafiq dekanlıq, beynəlxalq əlaqələr və s.) və tədris şöbələri arasında iş bölgüsüdür. Xüsusi olaraq qeyd edirik ki, əcnəbi tələbələrin qəbul xəttindən (DİM imtahanı, dövlət hesabı, şəxsi vəsait, mübadilə proqramları və s.) və vətəndaşlığından asılı olmayaraq qəbulu və təhsili üzrə təhsil müəssisəsindəki beynəlxalq əməkdaşlıq və ya əlaqələr, dekanlıq, mərkəz üzrə struktur bölmə məsul olaraq təhsil müəssisəsi tərəfindən müəyyən edilibsə, icrası digər struktur bölmələrə aid olan məsələlərin tənzimlənməsi və nəzarəti də bu bölmə tərəfindən təmin edilərək Nazirliklə əlaqələndirilməlidir.

Qeyd olunanları nəzərə alaraq, əcnəbi tələbələrin məlumatlarının atis.edu.az-a əlavə edilməsi və əcnəbi vətəndaşların qəbulunun portal.edu.az vasitəsilə aparılması məqsədilə həyata keçirilməli olan tədbirlərin icrasının təmin edilməsi və buna nəzarət məqsədilə aşağıdakılar Sizə tapşırılır:

- Hər iki sistemin işləkliyinin təmin olunması məqsədilə 01.06.2022-ci il tarixinə kimi lazımi addımların atılmasını və nəticəsi barədə Nazirliyə məlumat verilməsi;
- Qeyd olunan sistemlər üzrə işin icrası məqsədilə təhsil müəssisəsi daxilindəki struktur bölmələrin işinin əlaqələndirilməsi və təkmilləşdirilməsi;
- Hər iki sistemin işləkliyinin təmin olunması məqsədilə atılmalı olan addımlara dair təhsil müəssisəsinin rəhbərinin elektron poçt ünvanına Təhsil Nazirliyinin aidiyyəti struktur bölməsinin elektron poçt ünvanından (foreignstudents@edu.gov.az) daxil olan müraciətlərin icrasına nəzarət;
- Sistemin işləkliyi təmin olunduqdan sonra əcnəbi vətəndaşların qəbulunun portal.edu.az vasitəsilə aparılması ilə bağlı təhsil müəssisəsinin internet səhifəsində əlavədəki bannerlərin (elektron formada da təqdim olunacaq) yerləşdirilməsi.

*Qoşma: 1 (bir) vərəq*

**Nazir müavini** **Muxtar Məmmədov**